

AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Mart 2019

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
**Made in Azerbaijan**

# “İSLAHATLARA ALTERNATİV YOXDUR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 20 mart tarixində Novruz bayramı münasibətilə
Azərbaycan xalqına təbrik nitqindən



“İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir.

Mən tam əminəm ki, bu ili biz uğurla başa vuracağıq. Bundan sonra Azərbaycan yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedəcək, vətəndaşların sosial vəziyyəti ildən-ilə yaxşılaşacaq”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 11

Azexport.az portalına 2019-cu ilin yanvar-fevral aylarında 145,6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 17

"Amazonla Qazan" təlimlərinin yeni mərhələsinə başlanılmışdır — səh. 21

2019-cu ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 20,9 milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir — səh. 22

"İxrac strategiyası" mövzusunda təlim keçirilmişdir — səh. 25

Azərbaycan şərabları "Prowein 2019" beynəlxalq sərgisində nümayiş edilmişdir — səh. 26

Polşanın Varşava şəhərinə ixrac missiyası təşkil olunmuşdur — səh. 27

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-FEVRAL AYLARNDA** qeyri-neft sektoru üzrə **282 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **40 milyon** ABŞ dolları və ya **16,5%** **ARTMIŞDIR**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu ilin yanvar-fevral ayları ərzində Azərbaycanın ixracı 3,2 milyard ABŞ dolları təşkil etmişdir. Bu müddətdə Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixrac isə **282 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-fevral ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **40 milyon** ABŞ dolları və ya **16,5 faiz** artmışdır. Cari ilin ilk iki ayı ərzində Rusiyaya **82 milyon**, Türkiyəyə **63,6 milyon**, Gürcüstana **37 milyon**, İsveçrəyə **20,6 milyon** və İrana **8,5 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-fevral ayları ərzində Rusiyaya qeyri-neft ixracı **21 faiz**, Gürcüstana **13 faiz**, İrana **2,1 dəfə** artmışdır. Türkiyəyə və İsveçrəyə isə ixracımız azalmışdır.

2019-cu ilin yanvar-fevral ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (30,5 milyon ABŞ dolları) birinci olmuşdur. Bu siyahıda mahlıc (25,9 milyon ABŞ dolları) ikinci, qabığı təmizlənmiş meşə fındığı isə (24,7 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Cari ilin yanvar-fevral aylarında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), tomat (təzə və ya soyudulmuş), xurma (təzə), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen, metanol (metil spirti) da qeyri-neft ixracında mühüm paya sahib olmuşlar.

Ümumiyyətlə, 2019-cu ilin yanvar-fevral ayları ərzində meyvə-tərəvəz ixracı **76 milyon**, elektrik enerjisinin ixracı **30,5 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **30,1 milyon**, pambıq lifi ixracı **26 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **13,5 milyon**, kimya sənayesi məhsullarının ixracı **12,6 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **6,6 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **4,1 milyon**, pambıq ipliyi ixracı **3,7 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-fevral aylarında pambıq lifinin ixracı **2,6 dəfə**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **2,5 dəfə**, kimya sənayesi məhsullarının ixracı **90 faiz**, elektrik enerjisinin ixracı **50 faiz**, meyvə-tərəvəzin ixracı **30 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **26 faiz** artmışdır.

2019-cu ilin fevral ayında isə qeyri-neft sektoru üzrə ixrac **144 milyon** ABŞ dolları təşkil etmişdir. 2019-cu ilin fevral ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (38,3 milyon ABŞ dolları) biriciliyə yüksəlmişdir. Bu siyahıda Rusiya ikinci (35,7 milyon ABŞ dolları) və Gürcüstan üçüncü (23,4 milyon ABŞ dolları) olmuşdur.

Cari ilin fevral ayında qeyri-neft sektoru üzrə ixraca elektrik enerjisi (19,4 milyon ABŞ dolları) liderlik etmişdir. Bu siyahıda daranmaya məruz qalmamış pambıq lifi (14 milyon ABŞ dolları) ikinci, qabığı təmizlənmiş meşə fındığı (12,7 milyon ABŞ dolları) üçüncü yeri tutmuşdur.

Həmçinin 2019-cu ilin fevral ayında qeyri-neft sektoru üzrə ixracda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), ilkin formalı polipropilen, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, tomat (təzə və ya soyudulmuş), xurma (təzə) və metanol (metil spirti) önə çıxmışdır.

2019-cu ilin yanvar-fevral ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR-FEVRAL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI MART



2018 İXRAC İCMALI MART

# 2019-CU İLİN **FEVRAL AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN **YANVAR-FEVRAL AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **YANVAR-FEVRAL AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Elektrik enerjisi | 30,5 | 20,3 |
| Mahlıc | 25,9 | 9,9 |
| Fındıq ləpəsi | 24,7 | 15, 4 |
| Qızıl | 20,2 | 24, 4 |
| Tomat | 17,8 | 14,7 |
| Xurma | 17,5 | 19 |
| İlkin formalı polietilen | 15 | 18,5 |
| İlkin formalı polipropilen | 13,6 | 0,2 |
| Metanol (metil spirti) | 10,3 | 0 |
| Digər | 110,1 | 119, 3 |

2019 İXRAC İCMALI MART

# 2019-CU İLİN **FEVRAL AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Məhsul | 2019 | 2018 |
|---|---|---|
| Elektrik enerjisi | 19, 4 | 17,7 |
| Mahlıc | 14 | 3,4 |
| Fındıq ləpəsi | 12,7 | 6,3 |
| Qızıl | 10,5 | 7,2 |
| İlkin formalı polipropilen | 9,3 | 0,2 |
| İlkin formalı polietilen | 8,5 | 8,8 |
| Tomat | 7,3 | 6,8 |
| Xurma | 4,9 | 5,6 |
| Metanol (metil spirti) | 4,9 | 0 |
| Digər | 52,4 | 63 |

# 2018-Cİ İLİN Və 2019-CU İLİN **YANVAR-FEVRAL AYLARINDA** əN ÇOX İXRAC EDİLəN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI MART

## 2018



Yanvar — Qızıl **17,2**



Fevral — Elektrik enerjisi **17,7**

## 2019



Yanvar — Xurma **12,6**



Fevral — Elektrik enerjisi **19,4**

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-FEVRAL AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-fevral aylarında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-fevral ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Socar Polymer" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "TST Export" MMC, "P-Aqro" MMC, "Vorld Trade" MMC, "Sun Food" MMC, "Azhazelnut" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Garden Store" MMC.

2018-ci üzrə tərtib edilən reytinqlə müqayisədə aydın olur ki, 2019-cu ilin yanvar-fevral aylarında ixracatçı şirkətlər arasında mövqeyin ən çox möhkəmləndirən "Socar Polymer" MMC olmuşdur. Artıq "Socar Polymer" MMC ikinci yerdə qərarlaşmışdır və qarışdakı aylarda bu siyahıda liderliyi ələ alacağı proqnozlaşdırılır. Qeyd edək ki, "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında yer almışdır.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "CTS-Agro" MMC, "Bakı Neft Maşınqayırma Zavodu" TASC, "Azəripək" MMC, "Suraxanı Maşınqayırma Zavodu Törəmə" ASC, "Azərbaycan Dəmir Yolları" QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2019-CU İLİN **YANVAR-FEVRAL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-FEVRAL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI MART



# 2019-CU İLİN YANVAR-FEVRAL AYLARINDA "AZƏRKOSMOS" ASC 2 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



2019-cu ilin yanvar-fevral aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **15 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **71 faizini** təşkil etmişdir.

2019-cu ilin fevral ayında isə "Azərkosmos" ASC dünyanın 14 ölkəsinə **952 min** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2019-cu ilin yanvar-fevral aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə** (ABŞ dolları ilə)





2019-cu ilin **YANVAR-FEVRAL AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ** **173,6** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə **AZƏRBAYCANA GƏLƏN** əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı **3,3% ARTMIŞDIR**

2019-cu ilin yanvar-fevral aylarında Azərbaycana dünyanın 152 ölkəsindən 364,2 min və ya 2018-ci ilin yanvar-fevral ayları ilə müqayisədə 3,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 29,8 faizi Gürcüstan, 27,6 faizi Rusiya Federasiyası, 12,0 faizi Türkiyə, 5,8 faizi İran, 3,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,8 faizi Ukrayna, 1,7 faizi Hindistan, 1,5 faizi Pakistan, 1,4 faizi İraq, 14,7 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə yanvar-fevral aylarında gələnlərin sayında daha çox artım Misir (2,8 dəfə), Hindistan (1,8 dəfə), Pakistan (1,8 dəfə), Türkmənistan (1,6 dəfə), Macarıstan (47,7 faiz), Çin (32,7 faiz), Yaponiya (32,3 faiz), Oman (24,4 faiz), Cənubi Koreya (23,8 faiz), Gürcüstan (23,7 faiz) və Polşa (21,3 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

2019-cu ilin yanvar-fevral aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 1,6 faiz artaraq 11,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 0,9 faiz azalaraq 121,9 min nəfər olmuşdur.

2019-cu ilin yanvar-fevral ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **173,6 milyon** manat təşkil etmişdir.

Cari ilin fevral ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları isə **85,3 milyon** manat olmuşdur.

Bu barədə barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon manatla)**

## 2017

Yanvar - **86,8**
Fevral - **72,5**

**Cəmi - 159,3**

## 2018

Yanvar - **99,8**
Fevral - **91,1**

**Cəmi - 190,9**

## 2019

Yanvar - **88,3**
Fevral - **85,3**

**Cəmi - 173,6**

3

# AZEXPORT.AZ PORTALINA 2019-CU İLİN YANVAR-FEVRAL AYLARINDA 145,6 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Ötən ilin **MÜVAFİQ DÖVRÜ** ilə müqayisədə Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİ DƏYƏR** baxımından **22,3** faiz artmışdır.

2019-cu ilin yanvar-fevral aylarında Azexport.az portalına **145,6 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-fevral aylarında Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından 22,3 faiz artmışdır. Cari ilin fevral ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri isə **53,9 milyon** ABŞ dolları təşkil etmiş və 2018-ci ilin fevral ayı ilə müqayisədə 16,3 milyon ABŞ dolları və ya 43,4 faiz artmışdır. 2019-cu ilin yanvar-fevral ayları ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Türkiyə (13%), Rusiya(12,4%), ABŞ (7%), Hindistan (7%) və Gürcüstan (5,9%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, cari ilin fevral ayında ən çox ixrac sifarişi pambıq, soğan, fındıq ləpəsi, sarımsaq, qənnadı məhsulları, şərab, qoyun yunu, tütün, xalça, mühərrik yağı, nar şirəsi, çay, konservləşdirilmiş tərəvəz, tikinti materialı, mebel dəsti , bitki yağı, qızılgül, kartof və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 28 fevral tarixinə kimi (26 ay ərzində) Azexport.az portalına dünyanın 123 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **1 134,7 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**




Yanvar - **91,7 milyon**
Fevral - **53,9 milyon**

2017-ci il ərzində
**CƏMİ - 475 milyon**

2018-ci il üzrə
**CƏMİ - 514,1 milyon**

2019-cu il
**CƏMİ - 145,6 milyon**



Son **26 ay** ərzindəki sifarişlərin cəmi - **1 134,7 milyon**

# 2019-CU İLİN **FEVRAL AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2019 İXRAC İCMALI MART

Pambıq



Soğan



Fındıq



Sarımsaq



Quru süd



Bal



Qənnadı məhsulları



Şərab



Qoyun yunu



Tütün



Xalça



Mühərrik yağı



Nar şirəsi



Çay



Konservləşdirilmiş tərəvəz



# 2019-CU İLİN **YANVAR-FEVRAL AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ

2019 İXRAC İCMALI MART



4

# "AMAZONLA QAZAN" TƏLİMLƏRİNİN YENİ MƏRHƏLƏSİNƏ BAŞLANILMIŞDIR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az internet portal tərəfindən Azərbaycan Turizm və Menecment Universitetinin tələbələr üçün "Amazonla Qazan" layihəsi çərçivəsində təlim keçirmişdir. Təlim zamanı Azexport.az portalının rəhbəri Zaur Qardaşov və portalın meneceri Ayxan Qədəşov tələbələrə elektron ticarət platformalarından istifadə etməklə qeyri-neft ixracının artımının dəstəklənməsi istiqamətində görülən işlər barədə məlumat vermişlər. Azexport.az portalının Azərbaycan sahibkarları üçün yaratdığı unikal imkanlar tələbələrin nəzərinə çatdırılmışdır. Daha sonra təlimçilər Amazon portalından istifadə edərək biznes qurulması və gəlir əldə edilməsi ilə bağlı tələbələrə müvafiq izahatlar vermişdirlər.

Təlim zamanı iştirakçıları maraqlandıran suallar cavablandırılmış və fəallığı ilə seçilən 20-dan artıq tələbəyə sertifikat təqdim olunmuşdur.









5

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 20,9 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ İXRAC HƏYATA KEÇİRİLMİŞDİR

2019-cu ilin yanvar-mart ayları ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən yüzlərlə sahibkara ixracla bağlı müvafiq sertifikatlar verilmiş və bunun nəticəsində **20,9 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. 2019-cu ilin mart ayında isə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə **7,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı reallaşdırılmışdır.

Cari ilin mart ayı ərzində fiziki və hüquqi şəxslərə əsasən meyvə şirəsi, narşərab, polad boru, polad pəstah, polad armatur yayması, xurma, kələm, pomidor, kartof, balıq məhsulları, pendir, qiymətli metal külçələr, biyan kökü, dondurulmuş Xəzər kilkəsi, iplik tullantısı və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir.

Sertifikat verilən məhsullar Rusiya, Türkiyə, Gürcüstan, İran, İsveçrə, Macarıstan, Koreya, Çex Respublikası, Kanada daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon** ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN **YANVAR-MART AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)**






# 2019-CU İLİN **MART AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

- RUSİYA **44 %**
- TÜRKİYƏ **23 %**
- GÜRCÜSTAN **16 %**
- İRAN **4 %**
- İSVEÇRƏ **2 %**




- MACARISTAN **2 %**
- KOREYA **2 %**
- ÇEX RESPUBLİKASI **1 %**
- KANADA **1 %**
- DİGƏR **5 %**

6

# "İXRAC STRATEGİYASI" MÖVZUSUNDA TƏLİM KEÇİRİLMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin təşkilatçılığı ilə "İxrac strategiyası" mövzusunda təlim keçirilmişdir.

"Azərsun Holdinq" İnnovasiya və Marketinq departamentinin rəhbəri Ellada Əliyeva tərəfindən aparılan təlim zamanı ticarətlə məşğul olmaq istəyən sahibkarlara ixrac strategiyasının çərçivələri, ixrac ölkələrində doğru seçim qaydaları izah edilmiş, beynəlxalq ticarətin ölkəmiz üçün əhəmiyyəti, ixraca təsir edən amillər, ixrac üçün planlaşdırılan məhsulların seçimi zamanı əsas tələblər, markaların standartlara uyğunlaşdırılması, görüntü və qablaşdırma, ixrac zamanı markaların adaptasiyası, təbliğat - təşviqat, marketinq kommunikasiyaları kimi mövzularında geniş müzakirələr aparılmışdır.

Təlimçi öz çıxışında qeyd etmişdir ki, bütün sahələrdə baş verən dinamik dəyişikliklər dünya iqtisadiyyatından da yan keçməmişdir. Ona görə də hər bir şirkət öz üzərində bu dəyişimi hiss etməli, buna görə hərəkət etməlidir. Düzgün, vaxtlı-vaxtında qurulan ixrac strategiyaları, ixrac arsenalının genişlənməsi və ixrac olunacaq potensial ölkələrin standart tələblərinə uyğunlaşan, bu istiqamətdə çalışıb yaradılan məhsul portfelləri, məqsədyönümlü qurulmuş təbliğat-təşviqat fəaliyyəti qeyd edilən məqsədlərə çatmaq üçün atılan ən önəmli addımlardandır.

Təlim zamanı iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.



7

# AZƏRBAYCAN ŞƏRABLARI "PROWEİN 2019" BEYNƏLXALQ SƏRGİSİNDƏ NÜMAYİŞ EDİLMİŞDİR

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə şərab və digər spirtli içkilərin istehsalı ilə məşğul olan 10 Azərbaycan şirkəti öz məhsullarını Almaniyanın Düsseldorf şəhərində təşkil olunan "Prowein 2019" beynəlxalq sərgisində "Made in Azerbaijan" vahid ölkə stendində təqdim etmişdir.

Azərbaycan şərabları sərgiyə gələnlər və idxalatçı şirkətlər tərəfindən maraqla qarşılanmış və onların ixracına dair müzakirələr aparılmışdır.

Aparılan müzakirələrin nəticəsi olaraq, "Abşeron Şərab" şirkəti öz məhsullarının Almaniyaya ixracına dair ilkin razılıq əldə etmişdir.

Bundan başqa, "Naiqin Ko-Tovuz Baltiya" və "Aspi Aqro" şirkətləri istehsal etdikləri şərabların Almaniya, Fransa və Niderlanda, "Şərq Ulduzu", "Aqro-Azərinvest" şirkətləri isə Norveç, Almaniya və Çinə ixracına dair danışıqlar aparmışdır.








8

# POLŞANIN VARŞAVA ŞƏHƏRİNƏ İXRAC MİSSİYASI TƏŞKİL OLUNMUŞDUR

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə növbəti ixrac missiyası 6-10 mart tarixlərində Polşanın Varşava şəhərinə təşkil olunmuşdur.

İxrac missiyasına şərab və digər spirtli içkilər, qida məhsulları və kosmetik vasitələrin istehsalı ilə məşğul olan 22 Azərbaycan şirkəti daxil olmuşdur.

Missiya çərçivəsində Polşadan olan şirkətlərlə görüşlər keçirilmiş, məhsulların ixracına dair ilkin razılıqlar əldə olunmuşdur. Belə ki, “Azerstar” MMC, “Bakukonserv” QSC, “Mars-Fk” MMC, “AHEC” MMC, “Astara çay” MMC şirkətləri istehsal etdiklərin məhsullarının Polşaya ixracına dair ilkin razılıqlar əldə etmişlər.

Bundan əlavə “Azersun Holding ” və “Brightman BMC“ şirkətləri tərəfindən təqdim olunan məhsullar Polşadan olan şirkətlər tərəfindən maraqla qarşılanmışdır.

İxrac missiyası çərçivəsində Azərbaycan şirkətləri həmçinin Varşada təşkil olunmuş “Worldfood” beynəlxalq ərzaq sərgisində “Azərbaycan Ticarət Evi”nin təşkil etdiyi stenddə öz məhsullarını təqdim etmişdir. Sərgi zamanı keçirilmiş müsabiqədə “Şirvan Şərabları” şirkətinin istehsal etdiyi “Meysəri Məxməri Premium” şərabı mükafata layiq görülmüşdür.






**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

